# Həmkarımızın döyüşçü oğlu mükafatlandırılib

**"Təzadlar"ın əməkdaşı, Birinci Qarabağ savaşının iştirakçısı Elçin Məmmədlinin oğlu Tural Məmmədli, Kəlbəcər istiqamətində gedən döyüşlərdəki şücaətinə görə Prezident sərəncamı ilə "Kəlbəcərin azad olumasına görə" medalı ilə təltif olunub**

44 günlük İkinci Qarabağ savaşı xalqımızın və ordumuzun qələbəsi ilə başa çatdı. Ali Baş Komandan prezident cənab İlham Əliyevin iradəsi, qətiyyəti və sərkərdəlik bacarığı sayəsində torpaqlarımız 30 illik işğaldan azad olundu. Rəşadətli Azərbaycan ordusunun bu müharibədə göstərdiyi qəhrəmanlıq nümunəsi, seçdiyi döyüş taktikası artıq Avropa ölkələrinin hərbi dərsliklərinə salınır.

Bu tarixi qələbədə şəhidlərimiz vətən yolunda sinələrini sipər etdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bu yolda canlarını əsirgəməyib qazi olanlara tezliklə Allahdan şəfa diləyirik. Dövlətimiz və xalqımız bu kateqoriyadan olan insanların ailələrinə, özlərinə hər cür qayğı və diqqət göstərir. Şəhid və qazilərimizlə yanaşı 44 günlük döyüş yolu keçib, taleyin qismətindən salamat qalan döyüşçülərimiz də qayğı və diqqətdən kənarda qalmayıblar. Belə qəhrəmanlar Ali Baş Komandan prezident cənab İlham Əliyevin sərəncamı ilə vətənin ali mükafatlarına, müxtəlif orden və medallarına layiq görülüblər. Belə medala layiq görülən döyüşçülər arasında həmkarımız, "Təzadlar" qəzetinin əməkdaşı Elçin Məmmədlinin oğlu Tural Məmmədli də var.

Ötən ilin dekabrın 29-da Prezidentin sərəncamı ilə Tural Məmmədliyə



"Kəlbəcərin azadı olunmasına görə" medal verilib. Məlumat üçün qeyd edək ki, Elçin Məmmədlinin özü də Birinci Qarabağ savaşının iştirakçısı kimi, 1992-93-cü illərdə Beyləqan tərəfdən Haramı düzündən Xocavənd istiqamətində, Zəngilanda, Qubadlıda, Laçında və Füzulidə topçu-batareyasının komandiri kimi döyüş yolu keçib. Tale elə gətirib ki, oğlu Tural Məmmədli də Kəlbəcər və Murov istiqamətində gedən döyüşlərdə topçu batareyasında manqa komandiri kimi döyüşüb.

Döyüşün elə ilk həftəsində T.Məmmədligilin artilleriya divizionunun yerləşdiyi əraziyə düşmən mərmiləri düşüb. Bu zaman çox təəssüf ki, 5 əsgərimiz şəhid olub və 10 nəfər yaralanıb. Həmin an sırf təsadüf nəticəsində T.Məmmədliyə qəlpə dəyməyib. Lakin mərminin dalğası onu vurub yumuşaq yerə atıb. Bütün bunlara baxmayaraq, T.Məmmədli

atılan mərmilərdən çəkinmədən, yaralanmış və ağır vəziyyətdə olan əsgər yoldaşını həmin təhlükəli yerdən çıxararaq, onu çiynində aparıb, xeyli uzaqda olan təxliyə qrupuna təhvil verir.

**Sevindirici haldır ki, Ali Baş Komandan prezident cənab İlham Əliyev hər bir əsgərin də şücaətini diqqətdə saxlayaraq, mükafatlandırır. Hər bir döyüşçüyə göstərilən belə diqqət və qayğı gələcək nəsillərin vətənpərvərlik ruhunda böyüməsi üçün çox böyük bir stimuldur. Elə buna görə də həmkarımız Elçin Məmmədlini oğlu Tural Məmmədlinin mükafata layiq görülməsi münasibəti ilə təbrik edirik. Ən böyük arzumuz Tural balanın əsgəri xidmətini sağ-salamat başa vurub, evinə dönməsidir.**

**Sübhan**